**"Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"yə əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 16 dekabr tarixli 743 IIIQD nömrəli qanununun tətbiq edilməsi barədə**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

"Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"yə əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 16 dekabr tarixli 743-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə və Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"yə əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 16 dekabr tarixli 743-IIIQD nömrəli Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Bu Sərəncam dərc edildiyi gündən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2009-cu il.
№ 153